# Davamlı inkişaf və yüksələn rifah modeli

***2018**-ci ilin aprelində Azərbaycan xalqının böyük etimadı ilə yenidən dövlət başçısı seçilən cənab İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən köklü sosial islahatlar, imzaladığı fərman və sərəncamlar ötən 4 illik dövrdə ölkənin sosial inkişafı istiqamətində mühüm irəliləyişləri təmin edib. "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi bu sözlər davamlı sosial islahatlar nəticəsində əldə olunan mühüm nailiyyətlərdə öz əməli təsdiqini tapıb.*

***Ötən 4 illik dövrdə ölkənin sosial tərəqqisi istiqamətində mühüm irəliləyişlərə nail olunub***

İnsana qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi ilk növbədə belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də son illər mühüm və ardıcıl addımlar atılmaqdadır. Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.

**(davamı 7-ci səhifədə)**

# Davamlı inkişaf və yüksələn rifah modeli

**Ötən 4 illik dövrdə ölkənin sosial tərəqqisi istiqamətində mühüm irəliləyişlərə nail olunub**

**(əvvəli 1-ci səhifədə)**

Deməmk olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da bunun bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir.

Vətəndaş rifahı və məmnunluğunun təminatı istiqamətində son 4 ildə əldə olunan uğurların əsasını şəhid ailələri, müharibə əlilləri, digər həssas qruplarla bağlı dəstək tədbirlərinin davam etdirilməsi təşkil edir. 2018-ci ildə yenidən dövlət başçısı seçildikdən sonra Prezident İlham Əliyevin ilk imzaladığı Fərman şəhid ailələri ilə bağlı oldu ki, bu da dövlət başçısının şəhid ailələrinə xüsusi qayğısının daha bir təzahürüdür. Həmin 19 aprel 2018-ci il tarixli Fərmanla yeni mühüm sosial müdafiə proqramı - 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının vərəsələrinin (12 min şəhidin 18 mindən çox vərəsəsinin) 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təminatı proqramı uğurla icra olundu. Dövlət başçısının 23 dekabr 2021-ci il tarixli Fərmanına əsasən hazırda 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarının, onlardan vəfat etmiş şəxslərin vərəsələrinin də birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təminatına hazırlıq işləri aparılır. Həmçinin 44 günlük Vətən müharibəsində iştirak edən şəxslərə "Müharibə veteranı" adı verilərək onlara Prezidentin aylıq təqaüdünün təyinatı işləri bu ilin ilk rübündə uğurla icra olunub. Şəhid ailələri və müharibə əlillərini xüsusi qayğı ilə əhatə edən dövlət başçısının fərman və sərəncamları ilə həmin kateqoriyadan olanların sosial təminatı mütəmadi gücləndirilib, onlara yönələn sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Şəhid ailələri üçün Prezidentin aylıq təqaüdlərinin məbləği də 2018-ci ilin əvvəlinə nisbətən 2,3 dəfə artırılaraq 220 manatdan 500 manata çatdırılıb. Müharibə əlilləri və onlara bərabər tutulanlara (Çernobıl AES-də hərbi xidmət, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanlar və b.) Prezidentin aylıq təqaüdü isə 2018-ci ilin əvvəli ilə müqayisədə 2,4 - 2,7 dəfə artırılıb.

İcra edilən proqramlar üzrə mühüm sosial dəstək tədbirlərindən biri kimi şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı Prezidentin Sərəncamı ilə 2021-ci ildə 5 dəfə genişlənib. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilibsə, 2021-ci ildə onlara 3 min mənzil və fərdi ev verilməsi proqramı uğurla icra olunub. Ümumən Nazirlik tərəfindən ötən dövrdə 12 500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Dövlət başçısının 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən müharibəsi qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Həmçinin digər həssas qrupların - gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələrinin məzunlarının da mənzillə təminatı həyata keçirilir. Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı tədbirləri də uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili minik avtomobili ilə təmin edilib.

2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artdı. 2020-ci və 2021-ci illərdə də sosial ödənişlərdə növbəti artımlar (indeksasiya, təqaüd artımları) edildi. Pandemiyanın məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün genişmiqyaslı dəstək proqramları icra olundu. 2022-ci ilin əvvəlindən isə növbəti dəfə olmaqla 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlər artırıldı və bunun üçün də illik əlavə 2,1 mlrd. manat ayrıldı. Son 4 ildə müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə isə 3 dəfədən çox artım baş verib. 2019-cu ildən ötən dövrdə minimum əməkhaqqı 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatıb, orta aylıq əməkhaqqı isə 40 faiz artıb. 2019-cu ildən pensiyaların minimum məbləği 2,2 dəfə artaraq 240 manata çatıb. Orta aylıq pensiyanın məbləği isə 2018-ci ilin əvvəli ilə müqayisədə 70%-i üstələyib.

Onu da qeyd edək ki, 2018-2021-ci illərdə əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım qeydə alınıb. İllik əməkhaqqı fondunda isə həmin dövrdə 2 dəfədən çox artım olub. 2021-ci ildə 16 232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Ümumilikdə son 4 ildə və cari ilin ilk rübündə 44 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib. Özünüməşğulluq proqramının fəaliyyət sahələrinin sayı da yeni sahələr əlavə edilməklə 44-ə çatdırılıb. Dövlət başçısının təşəbbüsü və göstərişi ilə icra olunan ödənişli ictimai işlər proqramı da işsiz şəxslərə önəmli sosial dəstəkdir. Proqram üzrə 56 min şəxs işlə təmin edilib.

DOST konsepsiyası - Azərbaycanın mühüm sosial uğurlu brendidir. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə DOST Agentliyi və DOST mərkəzləri yaradılmışdır. Hazırda 5 DOST mərkəzi fəaliyyət göstərir, bütün Bakı şəhəri və Abşeron rayonu DOST şəbəkəsi ilə əhatə olunub, Bakıdakı DOST mərkəzlərinə müraciət üçün qeydiyyat prinsipi də artıq ötən il aradan qaldırılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST konsepsiyası məşğulluq, əmək münasibətləri, pensiya, sosial müavinətlər, təqaüdlər, əlillik və sağlamlıq imkanlarının məhdudluğu, sosial sığorta və sosial xidmətlər istiqamətində, həmçinin bank və notariat xidmətləri kimi funksional yardımçı xidmətlərin "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə göstərilməsinə imkan verib. Ötən dövrdə 800 mindən çox vətəndaş DOST xidmətlərindən faydalanıb. Bu xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi isə 98 faiz üzərindədir.

Prezident İlham Əliyevin tapşırıqları əsasında sosial sahədə ölkəmizdə aparılan islahatların uğurları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Xüsusilə qeyd etmək lazımdır ki, DOST Agentliyinin fəaliyyəti beynəlxalq miqyasda tanınır və mükafatlara layiq görülür. Belə ki, DOST Agentliyi 2022-ci ilin fevral ayında Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının fəxri fərmanına layiq görülüb. Agentlik MDB məkanında sosial təminat sahəsində və vətəndaş məmnunluğunun artırılmasında qabaqcıl innovasiyaların, rəqəmsal texnologiyaların tətbiq edilməsi, eləcə də dövlət xidmətlərinin göstərilməsində operativ metodlara görə fəxri fərmanla mükafatlandırılıb. Bu günlərdə isə daha bir nüfuzlu mükafatı - Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanıb. "Texnologiya alətləri" kateqoriyasında sosial xidmətlərdə smart modelin tətbiqinə görə DOST Agentliyi 20 mindən çox səslə Avropanın bu nüfuzlu mükafatına sahib olub. Həmçinin "Könüllü DOST proqramı" da Azərbaycanda könüllülük hərəkatının genişlənməsində önəmli rol oynayır və Avropa Sosial Şəbəkəsinin qeyd edilən müsabiqəsində Agentliyin DOST Könüllülərinin fəaliyyətinə dair "Dəyərləri birləşdir - bərabərliyə nail ol" adlı ərizəsi "Möhtəşəm Heyət" kateqoriyasında Avropa müsabiqəsinin finalçısı olub. DOST Agentliyi 4 istiqamət üzrə ISO sertifikatlarına da layiq görülüb. Agentlik ISO (Keyfiyyət İdarəetmə Sistemi), (Müştəri məmnunluğunun təmin edilməsi və Şikayətlərin İdarəedilməsi), (Sosial məsuliyyət) və (Korrupsiyaya qarşı idarəetmə sistemi) üzrə bütün mərhələləri uğurla keçib. Dövlət Sosial Müdafiə Fondu da Böyük Britaniyada keçirilən "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqəsinin "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına layiq görülüb. DSMF tərəfindən müsabiqəyə təqdim edilən iş Azərbaycanda sosial təminat idarəçiliyinin mərkəzləşdirilməsi sahəsində son illər aparılan islahatlarla bağlı olub. Münsiflər heyəti tərəfindən ölkəmizin bu sahədə islahat təcrübəsi yüksək dəyərləndirilib və qeyd edilən mükafata layiq görülüb. Həmçinin 2019-cu ildə Azərbaycanın dörd sosial layihəsi (özünüməşğulluq proqramı, ünvanlı sosial yardım və əlillik təyinatı üzrə e-sistemlər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması tədbirləri) Beynəlxalq Sosial Təminat Assosiasiyasının ən yaxşı təcrübələr kimi xüsusi mükafat və təltiflərinə layiq görülüb.

Dövlət başçısının uğurlu siyasəti ölkədə sosial infrastrukturun, o cümlədən sosial xidmət və reabilitasiya sisteminin davamlı inkişafına imkan yaradıb. 2018-ci ildən sonrakı dövrdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra ən müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib, Qəbələdə də Uşaq Reabilitasiya Mərkəzi açılıb. Yaxın aylarda Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək. Yeni reabilitasiya mərkəzlərinin açılması və bərpa sisteminin müasirləşdirilməklə imkanlarının artırılması reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 3 dəfə artırılaraq 30 minə çatdırılmasına imkan yaradır. Həmçinin son 4 ildə sosial xidmətlər, günərzi və icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi xeyli genişlənib. Sosial xidmət sahələrində daimi təkmilləşdirmələr davam edir.

**Mustafa KAMAL,**
**"Respublika".**